# DOST mərkəzlərinin göstərdiyi 126 xidmətə nələr daxildir...

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat - DOST Agentliyi və DOST mərkəzlərinin fəaliyyətinə start verilməsi insanların həyatında mühüm rol oynamağa başlayıb. Ölkəmizdə yeni təsisat olan bu mərkəzlərin yaradılması vətəndaş məmnunluğunun təmin edilməsinə xidmət edir.**

***Əli Əlirzayev:*** *"Bu xidmətlərin siyahısına əmək, məşğulluq, sosial təminat, ünvanlı dövlət sosial yardımı, əlillik, pensiya, sosial sığorta və digər aidiyyəti sahələr üzrə 126 növ xidmət daxildir"*

***Ruslan Atakişiyev:*** *"DOST mərkəzlərinin əhaliyə göstərdiyi xidmət kifayət qədər şəffaf və keyfiyyətlidir"*




Respublikamızda aktiv fəaliyyət göstərən DOST mərkəzlərinə bu il 20 min müraciətin daxil olduğu bildirilir. Qeyd olunana görə, vətəndaşların məmnunluğu səviyyəsi 93 faizə yüksəlib. Bu gün DOST mərkəzlərində vətəndaşlara artıq 126 növ xidmət təklif edilir. Məlumatlara görə, bu il daha bir, gələn il isə 3 mərkəzin açılması nəticəsində Bakı əhalisinin 80 faizi əhatə olunacaq.

DOST mərkəzlərində əhaliyə təklif olunan 126 növ xidmət barədə danışan iqtisadçı-ekspertlər hesab edirlər ki, vətəndaşların rahatlığının təmin olunmasında bu xidmətlərin xüsusi yeri var.

İqtisadçı-ekspert Əli Əlirzayev bizimlə söhbətində bildirdi ki, hazırda DOST mərkəzində əmək, məşğulluq, sosial təminat sahələri üzrə 126 növdə xidmət göstərilir ki, bu xidmətlərdən də sakinlər lazımi dərəcədə istifadə edə bilirlər. Artıq Azərbaycanda özünü doğruldan bu mərkəzlərdə gələcəkdə xidmətlərin sayının daha da artırılacağını istisna etməyən Ə.Əlirzayev bildirdi ki, 2019-2025-ci illərdə bütün ölkə üzrə 31 DOST mərkəzi yaradılacaq və həmin mərkəzlər 2,8 milyon şəxsi xidmətlərlə təmin edəcək. Mərkəzdə xidmətlərin "bir pəncərə", həmçinin, operativlik, vətəndaş məmnunluğu, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında həyata keçirildiyini vurğulayan Ə.Əlirzayev hesab edir ki, bu məkan insanların etibarlı müraciət ünvanına çevrilib. "DOST mərkəzlərinin yaradılması vətəndaşların həyatında müsbət rol oynayır. Bu gün müxtəlif istiqamətlər üzrə fəaliyyət göstən DOST mərkəzlərinə vətəndaşların sıx-sıx müraciət etməsi təbii haldır. DOST mərkəzləri ilə bağlı əsasnamədə bu mərkəzlərin göstərdiyi xidmətlər əks olunub. Deyərdim ki, əhalinin ehtiyacı olan bütün sahələri bu mərkəzlər əhatə edir. Bu xidmətlərin siyahısına əmək, məşğulluq, sosial təminat, ünvanlı dövlət sosial yardımı, əlillik, pensiya, sosial sığorta və digər aidiyyəti sahələr üzrə 126 növ xidmət daxildir. Bu elə bir xidmət sahəsidir ki, insanlar buradan ancaq razılıqla ayrılırlar. Bütün problemlərin həllinə burada kompleks yanaşılır. DOST mərkəzləri vətəndaşlara 126 növ üzrə xidmət göstərməklə, bütövlükdə, onların məmnunluğunu təmin edirlər".

O, həmçinin, qeyd etdi ki, mərkəzlərdə xidmətlərin birbaşa (yerində) xidmət, özünəxidmət, "çağrı mərkəzi" vasitəsilə xidmət və səyyar xidmət formasında, habelə qanunazidd olmayan digər formalarda təşkil edilməsi vətəndaşlara fayda verir.

Ə.Əlirzayevin sözlərinə görə, bununla yanaşı, mərkəzlərin fəaliyyətinə yardımçı xidmətlər, o cümlədən, cari bank hesablarının açılması, dövlət rüsumlarının və xidmət haqlarının qəbulu, daşınmaz əmlakın sığortası, inzibati xətalara dair cərimələrin qəbulu və sair də daxildir.

İqtisadçı-ekspert Ruslan Atakişiyev də "Bakı-Xəbər"ə açıqlamasında DOST mərkəzlərinə müraciətlərin sayının artmasını müsbət qiymətləndirdi. R.Atakişiyev qeyd etdi ki, vətəndaşlar burada öz problemlərini asanlıqla həll edirlər. "Qeyd edim ki, DOST mərkəzlərində əsas xidmətlər ümumi olaraq bir neçə istiqamətə bölünür. Burada istiqamətlərdən biri əmək münasibətləri ilə bağlıdır. Yəni işəgötürənlərə işçilər üzrə xidmətlərdir. Digər xidmət isə əlil və sağlamlıq imkanları məhdud olan əhaliyə göstərilən xidmətdir. DOST mərkəzlərində, həmçinin, məşğulluq, əmək pensiyaları, sosial müavinətlər, ünvanlı sosial yardımın təyin edilməsi, Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə müxtəlif şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təyin edilməsi sahəsində də xidmətlər göstərilir. Bu xidmətlərə eyni fərdi sığorta olunanların uçota alınması və uçotdan çıxarılması, sosial xidmət sahəsində müxtəlif xidmətlərin göstərilməsi daxildir. Bununla yanaşı, funksional yardım xidmətləri göstərilir. Yeni kreditlərdir, sığorta ödənişlərinin həyata keçirilməsi, avtomobillərin, daşınmaz əmlakın sığortası, notarius xidmətləri və s. bura aiddir. Vətəndaşların daha çox DOST mərkəzlərinə müraciət etməsinin səbəbi odur ki, burada onların problemləri daha asanlıqla həll olunur.

Əhali bura çox müraciət edir. DOST mərkəzlərinin əhaliyə göstərdiyi xidmət kifayət qədər şəffaf və keyfiyyətlidir. Bu da vətəndaşların daha inamla bu mərkəzlərə üz tutmasına imkan verir" - deyə R.Atakişiyev qeyd etdi.

***İradə SARIYEVA***